PARADIGMA, No.1, 2026, səh.79-84
https://doi.org/10.30546/30015.2026.01.01.2054

# RƏQƏMSAL İQTİSADİYYATIN VERGİ ÇAĞIRIŞLARI

**A.E. İmranzadə**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: agaimranzade26@gmail.com

**Xülasə.** Məqalədə dövlətin rəqəmsal iqtisadiyatın məzmunu, onun ölkəmizin vergi sisteminə təsiri aspektləri, Azərbaycanda elektron dövlət xidmət-lərinin təşkili formaları, ölkəmizin vergi qanunvericiliyində kriptovalyuta əməliyyatlarının vergiyə cəlb edilməsi xüsusiyyətləri tədqiq olunmuş, dünya təcrübəsinə münasibətdə onun məzmununun xüsusiyyətlər göstərilmişdir

**Açar sözlər:** Rəqəmsal iqtisadiyat, elektron kabinet, rəqəmsal pullar, kriptovalyuta, rəqəmsal maliyyə aktivləri.

## Giriş

İqtisadiyatın rəqəmsallaşdırılması şəraitində vergi sistemi üçün çağırışlar arasında vergidən yayınma halları ilə əlaqədar vergi risklərinin artımasını qeyd etmək lazımdır. Bu problem müasir biznes modellərin yayılması, qeydiyatdan keçmədən və faktiki olaraq ölkədə olmadan biznesin aparılmassı ilə əlaqədar daha da aktuallaşmışdır.

Son illər Azərbaycanda iqtisadiyatın rəqəmsal transformasiyası başlıca prioritetlərdən biridir. İnformasiya cəmiyətinin inkişaf konsepsiyasının realizə olunması məqsədilə rəqəmsal iqtisadiyat proqramı təsdiq olunmuşdur. “Rəqəmsal iqtisadiyat” anlayışının şərhinə bu sahədə yerli və xarici alimlərin tədqiqatlarına əsaslanaraq iki yanaşmanı qeyd etmək olar. Həmin anlayışa verilən təriflərə əsasını telekomunikasiya və informasiya texnalogiyalarının təşkil etdiyi iqtisadi münasibətlərin bütün istiqamətləri daxil edilmişdir [4, s.56].

Rəqəmsal iqtisadiyat ölkəmizin vergi sistemi dörd aspektə təsir edir:

1) vergi xidməti tərəfindən rəqəmsal texnalogiya tətbiq etməklə dövlət xidmətlərinin göstərilməsi;

2) avtomatlaşdırılmış vergi nəzarət sistemi;

3) rəqəmsal iqtisadiyata investisiya qoyuluşunun stimullaşdırılması üçün əlverişli vergi mühütinin yaradılması;

4) rəqəmsal texnalogiyanın tətbiqi ilə əlaqədar yaranmış yeni məhsulların vergiyə cəlb edilməsi mexanizminin müəyyən edilərək hazırlanması.

Bu gün Azərbaycanda elektron dövlət xidmətlərinin sayı və keyfiyəti artır, büdə və büdcə prosesi barədə real vaxt rejimində lazımı informasiya verən vahid büdcə sistemi portalı mövcuddur. Elektron büdcə əsas vəsait sərəncamçıları üçün onlayn rejimində vahid məlumat bazasında özünün tabeçiliyində olan təşkilatlarla birlikdə büdcəni hazırlamaq, ona nəzarət və

icra etmək imkanı verir. Bu funksiyalar mühafizə olunan “şəxsi kabinetlər” vasitəsilə realizə olunur. İctimai maliyyə sahəsindəki normativ, statistik və analitik informasiyaya daxil olmaq sərbəstdir [5, s.112].

**Vergitutma sferasında göstərilən elektron xidmətlər**

Vergitutma sferasında xidmətləri dövlət vergi orqanları göstərir. Hər bir vergi ödəyicisi şəxsi vergi informasiyasına daxil ola bilər. Məsələn, “Hüquqi şəxsin şəxsi kabineti” elektron xidməti vergi müfəttişliyinə sorğu və ərizə göndərməyə, çıxarışlar və hesablanmış və ödənilmiş vergilər, vergi borcları haqqında informasiya almaq almaq imkanı verilir “Fiziki şəxsin fəxsi kabineti” elektron xidməti vasitəsilə vergi müfəttişliyindən informasiyası mübadiləsi etmək, onlayn qaydada bəyannamə tərtib etmək, kameral yoxlamaların nətisəsilə taniş olmaq, büdcə ilə hesablaşmaların vəziyyətinə nəzarət etmək olar. Fərdi sahibkarlar üçün öz fəaliyyətlərinin göstərməsi üçün lazım olan xidmətlər göstərilir. “Hüquqi şəxslərin dövlət qeydiyatı” elektron xidməti vasitəsilə müəssisənin yaradılması üçün lazım olan sənədlər kompleksinin hazırlanmasını, ərizənin döldurulması və onun vergi orqanlarına göndərilməsini təmin edir. Elektron şəklində müxtəlif reyestrlərdən, o cümlədən vergi ödəyicilərinin uçotu üzrə vahid dövlət reyestrindən istənilən informasiyanı almaq mümkündür. Bundan başqa, elektron formada aşağıdakı xidmətlər göstərilir:

- vergilərin ödənişi üzrə ödəniş sənədlərinin formalaşdırılması;
- elektron qaimə-fakturaların doldurulması;
- fiziki şəxslərin əmlak vergisinin ödənilməsi;
- elektron kalkulyatorla istənilən vergituma rejimini seçmək və s.

**Yeni məhsul və əməliyyatların vergitutma mexanizminin hazırlanması qarşısında duran vəzifələr.**

Rəqəmsallaşdırma şəraitində mövcud vergi tənzimlənməsi və inzibatçılığının mexanizminin inkişaf etməsinə baxmayaraq bəzi problemlər mövcuddur. Son vaxtlar rəqəmsal maliyyə aktivlərinin (kriptovalyuta, token) saxlanması, dövriyyəti və cəmləşdirilməsi zamanı hüquq müstəvisinin müəyyən edilməsinin çətinliyi sahəsinddə aktiv müzakirələr gedir. Həmin problemlərin həlli yolu rəqəmsallaşdırma sferasındakı yeni məhsul və əməliyyatların vergitutma mexanizminin (rəqəmsal pullar kimi ictimai maliyyə alətlərinin fəaliyyəti kimi) hazırlanmsı və konkretləşdirilməsidir [4, s. 201]. Bu məqsədlə ön plana aşağıdakı vəzifələr çıxır:

1) maliyyə əlıətlərinin hüquqi baxımdan vergi qanunvericiliyində izahının verilməsi;

2) rəqəmsal pul münasibətlərinin hüquqi tənzimlənməsinin məqsəd və prinsiplərinin hazırlanması;

3) maliyyə alətləri növlərinin tənzimlənməsi zamanı milli və beynəlxalq standartların optimal nisbətinin müəyyənləşdirilməsi.

**Elektron pulların tətbiqi mexanizmləri**

İqtisadiyatın rəqəmsallaşdırılması və müasir iqtisadi münasibətlərin qarşılıqlı əlaqəsi vasitəsilə subyektlərinin hərəkətlərinin hüquqi baxımdan rəqəmsal pulların hansı maliyyə alətlərinə aid edilməsini müəyyənləşdirmək lazımdır. Elektron pulların (xüsusilə, blokçeyn texnalogiyası əsasında fəaliyyət göstərən kriptovalyutanın) müstəqil pul vəsaitlərri kateqoriyasına, yaxud digər maliyyə münasibətlərinin digər kateqoriyasına aid edilməsi, hüquq nəzəriyyə və praktikası baxımından həmin maliyyə alətlərinin şərhində çoxsaylı fikir ayrılığı yaradırö [5, s. 118]. Həmin alətlərin tənzimlənməsi aspektlərinin lazımınca dərk edilməməsi (məsələn, hüquq baxımından kriptovalyuta ilə əməliyyatların hansı münasibətlərə aid olması), fiskal vergi münasibətlərinə yanaşmalarda elm və praktika sahəsində irəlləyişlər əldə etmək imkanı vermir.

Əgər rəqəmsal pulları iqtisadi və hüquqi müstəvidən nəzərdən keçirsək, onda hüquqi statusun konkretləşdirilməsi variantlarından biri onların valyuta kimi dəyərləndirilməsidir. Bu halda tənzimlənmə valyuta qanunvericiliyinin əsasını təşkil edən və valyuta ilə əlaqədar fiziki və hüquqi şəxslərin öhdəlik və səlahiyyətlərini təsdiq edən “Valyuta tənzimlənməsi və valyuta nəzarəti haqqında” Qanuna əsasən həyata keçiriləcək.

Kriptovalyuta buraxılışı, mübadiləsi və uçotu kriptoqrafik prinsiplərə (şifrələnməyə) əsaslanan yeni texnalogiyadır. Rəqəmsal pulların ölçü vahidi koinlərdir. Bütün kriptovalyutalar blokçeyn texnalogiyasına – müəyyən qaydalara və ciddi ardıcıllıqla düzülmüş informasiya blokları zəncirinə əsaslanır. Bu halda istənilən sferada uçot aparmaq, məlumatları saxlamaq, transaksiyalar keçirmək mümkündür. Blokçeyn platformasıpraseslərə mərkəzləşdirilmiş nəzarətin olmadığı yerlərdə ümumi istifadə üçün məlumatlar bazasıdır. Kriptovalyutanın nominal dəyərinə zəmanət yoxdur, məzənnəsi tamamilə istifadəçilərin tələbatından aslıdır. Hazırda kriptovalyutanın 700 çox növü mövcuddur. Onlardan ən tələbat olanı əksər ölkələrdə dövlət tərəfindən tanınan və investisiya aləti kimi istifadə olunan, real ifadəsi olmayan, lakin adi pullarla yanaşı bazar əməliyyatlarında iştiral edən bitkoinlərdir (cədvəl 1). Məsələn, Almaniyada bitkoinlərlə hesablaşmalar, Çində isə yalnız fiziki şəxslərə əməliyatlar aparmağa icazə verilir.

Ölkəmizin vergi qanunvericiliyində kriptovalyuta əməliyyatlarının vergiyə cəlb edilməsi və onların vergi inzibatçılığı öz əksini tapmamışdır. Vergi tənzimlənməsinin informasiya bazasını, Dövlət Vergi Xidməti və Maliyyə Nazirliyinin, kriptovalyuta əməliyyatları aparan müəssisə və fiziki şəxslərin gəlirlərinin vegiyə cəlb edilməsi üzrə fərdi sullarının cavabını üzündə əks etdirən,

məktubları təşkil edir. Bu səbədən müasir mərhələdə rəqəmsal iqtisadiyatın intensiv inkişaf etdiyi şəraitdə hüquq-vergi münasibətlərinin hüquqi tənzimlənməsi məsələsinin aktuallığı heç kimdə şübhə doğurmur.

Kriptovalyuta vahidi yaradarkən mülkiyət hüququ formalaşır, çünki istifadə, sahib olmaq, sərəncam vermək, alqı-satqı, mübadilə etmək imkanları yaranır. Mülki qanunvericilik tətbiq olunarkən pozulmuş mülkiyət hüququnun bərpası və məhkəmə tərəfindən təminedici tədbirlərin görülməsi prroblemi yaranır. Belə hallarda problem kriptovalyutanı mülki hüquq münasibətlərinin obyektləri siyahısına daxil edilməklə həll olunur və bu zaman pul emissiyasına dövlət manapoliyası pozulmur.

**Cədvəl 1. Müxtəlif ölkələrdə kriptovalyutanın hüquqi statusu və vergiyə cəlb edilməsi**

| Dövlət | Kriptovalyutanın hüquqi statusu | Kriptovalyuta əməliyyatlarının vergiyə cəlb edilməsi |
|---|---|---|
| Avstraliya | əmlak | mənfəət vergisi; gəlir vergisi |
| Avstriya | qeyri maddi aktiv | gəlir vergisi |
| Böyük Britaniya | ödəniş vasitəsi | korporativ vergi; gəlir vergisi |
| Almaniya | valyuta | kapital artımına görə vergi; zənginlik vergisi; ƏDV |
| İspaniya | valyuta | mənfəət vergisi |
| Kanada | maddi aktivi | mənfəət vergisi; gəlir vergisi |
| Malta | qiymətli kağız | mənfəət vergisi; gəlir vergisi |
| Rusiya | əmlak | mənfəət vergisi; gəlir vergisi |
| Sinqapur | xidmət | korporativ vergi; mal və xidmətlərə görə vergi; |
| ABŞ | əmlak | əmlak vergisi; illik gəlirə görə vergi; mənfəət vergisi; kapital artımına görə vergi; əmək haqqı vergiləri |
| İsveçrə | valyuta | gəlirə görə vergi |
| İsveç | valyuta | gəlirə görə vergi |
| Yaponiya | ödəniş vasitəsi | gəlirə görə vergi |

**Mənbə: müəllif tərəfindən hazırlanmışdır**

Beləliklə, müasir yeni maliyyə münasibətləri, onların hüquqi və vergi tənzimlənməsi vergituma məqsədləri üçün elektron pullar anlayışının müəyyələşdirilməsi baxımından dərindən tədqiq olunmalı, vergitutma obyekti kimi həmin münasibətlərin xüsusiyyətləri nəzərdən keçirilməli və öyrənilməli, rəqəmsal iqtisadiyyatda vergitutmanın hüquqi

tənzimlənməsinin xarici ölkədəki tədqiqatları,eləcə də priptovalyutanın vergiyə cəlv edilməsi zamanı hüquqi münasibətlərin yaranması və onların tənzimlənməsi məsələləri araşdırılmalıdır. Qeyd olunanlar mülki normaların, vergi və digər qanunvericilik növlərinin təkmilləşdirilməsini tələb edir, çünki hazırda kriptovalyuta qarşılıqlı hesablaşmalarda aktiv surətdə istifadə olunur və aşağıdakı rəqəmsal maliyyə münasibətlərini tənzimləyəcək "Rəqəmsal maliyyə aktivləri haqqında" qanun layihəsinə baxmayaraq elektron pul vəsaiti, xarici valyuta, mülkiyyət hüququ obyekti hesab olunmur [3, s. 47 ]:

1) kriptovalyutalar;
2) onların əldə olunması texnalogiyası (mayninq);
3) tokenlərin köməkliyi ilə layihələrin ilkin maliyyələşdirilməsi proseduru (ICO);
4) informasiyanınbölüşdürülərək saxlanması texnalogiyası (blokçeyn) və onunla bağlı smart kontraktlar.

Rəqəmsal iqtisadiyatın formalaşması bütün fəaliyyət sferasında (xüsusilə dövlət idarəetməsində) baş verən qlobal dəyişikliklər prosesi ilə bağlıdır. Ölkəmizin iqtisadiyatındarəqəmsal texnalogiyaya əsaslanan yeni maliyyə alətlərinin meydan çıxması vergituma sferasında çoxsalı problemlərin həllini tələb edir. Vergitutma məsələlərinin tezliklə həll olunmasında yalnız dövlət deyyil, həmçinin bazar iştirakçıları olan vergi ödəyiciləri də maraqlıdır, çünki rəqəmsal pulların hüquqi aspektlərinin olmaması vergi və digər qanunvericilik aktlarına dəyişiklik edilməsi mümkün deyil.

**Nəticə**

Beləliklə, göründüyü kimi müasir maliyyə münasibətləri, onların hüquqi və vergi tənzimlənməsi, vergitutma baxımından elektron pul anlayışının öyrənilməsi, vergituma obyekti kimi bu hüquq münasibətləri səciyyəvi xüsiyyətləri, rəqəmsal iqtisadiyyatda vergitutmanın hüquqi tənzimlənməsinin xarici modellərinin, hüquqi münasibətlərin yaradılması və tənzimlənməsi öyrənilməsiməqsədləri üçün dərindən öyrənilməsi məqsədilə tədqiq olunmalıdır. müəyyən edilməsi; bu hüquqi münasibətlərin xüsusiyyətlərinin vergitutma obyekti kimi araşdırılması və öyrənilməsi; araşdırılması; və Rusiya Federasiyasında kriptovalyutaların vergiyə cəlb edilməsi sferasında hüquqi münasibətlərin yaradılması və tənzimlənməsi baxımından dərindən öyrənilməlidir.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikası Dövlət Vergi Xidməti: [Elektron resurs]. – URL: https://www.taxes.gov.az/az
2. Əliyev V., (2023), Rəqəmsal iqtisadiyyat və vergi siyasətində çağırışlar, Bakı, Elm, 21.

3. Бабкин А. В., (2017), Формирование цифровой экономики в России: сущность, особенности, техническая нормализация, проблемы развития, Экономические науки, Т. 10, № 3, 9-25.
4. Комиссарова М. С., (2018), Внедрение информационных технологий в систему налогового контроля в условиях цифровизации экономики [Электронный ресурс] / М. С. Комиссарова, Н. В. Рудченко // Молодой ученый, № 52, 120-123
5. Пшеничников В. В., (2017), Электронные деньги как фактор развития цифровой экономики [Электронный ресурс] / В. В. Пшеничников, А. В. Бабкин // Научно-технические ведомости СПбГПУ, Экономические науки, Т. 10, № 1

## TAX CHALLENGES OF THE DIGITAL ECONOMY

**A.E. Imranzade**
Azerbaijan University, Ceyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** The issues of changing the tax system of the Russian Federation, the system of tax control under the influence of digital technologies have been examined. Electronic government services in the field of taxation, as well as the prospects and directions for the further development and expansion of electronic services used for taxpayers and tax authorities have been considered. The problems of taxation of operations with crypto currencies and their tax regulation have been touched upon. Conclusions have been formulated to improve the efficiency of taxation and tax control in the transition to a digital economy.

**Keywords:** Digital economy, electronic office, electronic office of legal entities, electronic office of individuals, digital money, crypto currency, digital financial assets.